# «Niskilli dünyam» kitabı: rayon peşə tədris mərkəzində təqdimat mərasimi

(Əvvəli 7-ci səhifədə).

Nəzakət Nemanın ilk kitabı ilə bağlı çıxış edənlərdən Ziynət Babayeva, Rəna Abdullayeva, Samir Əfsəroğlu, Baba Vəziroğlu, RİH-nin məsul işçisi Zahid Əfəndiyev kitabda toplanan şerlərə, habelə toplunun tərtibatına, yüksək keyfiyyətlə çap olunmasına münasibətlərini bildirmiş, gənc qələm sahibinə yeni-yeni uğurlar arzulamışlar. Çıxışlarda qeyd olunmuşdur ki, kitaba toplanan şeirlər Nəzakət xanımın ilk qələm sınağı olsa da, yuxusuz gecələrin, yeni poetik düşüncələrin, gərgin axtarışların nəticəsidir. Şeirlərdə Vətən məhəbbəti, el məhəbbəti sevgi-məhəbbət hissiləri çox güclüdür. Şair müharibə şəraitində yaşayan Vətənin o vaxtki ağır günlərini belə təsvir edir:

**Vətən nalə çəkirdi**
**İçində səssiz-səmirsiz,**
**Vətən nalə çəkirdi**
**Səndən, məndən xəbərsiz...**

Yaxud:

**Arzumuz, diləyimiz,**
**Döyünən ürəyimiz,**
**Həmişə gərəyimiz**
**Sən olmusan Qarabağ.**

Vətəninə, öz elinə-obasına, milli sənətə bağlı olan şair qəzəl haqqında yazır:

**Tərifə, təsvirə ehtiyacı yoxdu qəzəlin,**
**Kimsəni tərif üçün bil ki, cəsarətdi qəzəl.**
**Hamımız edək etiraf, qoy bilsin söz sevənlər**
**Bizlərə Füzulimizdən bir nişanətdi qəzəl!**

Həyata baxışlarında, sevgi-məhəbbətə aid yazdığı şeirlərində yeni düşüncə tərzi, buraxılan səhvlərə qayıdış əsas yer tutur. Niskilli dünyası isə dünyadan köçmüş əzizlərinə, yaxınlarına həsr etdiyi şeirlərində öz əksini tapır.

Bir məqalə ilə şairin toxunduğu mövzuları təhlil etmək, onu qiymətləndirmək çox çətindir. Yaxşı olar ki, oxucu kitabı əldə edib gənc şairin poetik dünyası ilə özü tanış olsun.

Mərasimdə çıxış edən yazarlarımızdan Rasim Bayram, Əhməd Məmmədli, Elçin Dönməz rayon ağsaqqallar şurası sədrinin müavini Əliş Ağayev, rayon təhsil şöbəsi metodkabinetinin müdiri Arifə Bayramova, rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov, tarix müəllimi Reyhan Cələbiyeva çıxış edərək Nəzakət Nemana yeni yaradıcılıq uğurları arzuladılar, təhsil şöbəsi adından müəllifə hədiyyə təqdim olundu.

Mərasimdə iştirak edən müəllifin anası Mirvari xanım çıxış edərək qonaqları salamlamış, tədbirin təşkilatçılarına, bütün iştirakçılara və müəllif haqqında deyilən xoş sözlərə görə öz minnətdarlığını bildirmişdir.

Sonda rayon turizm və otelçilik üzrə peşə tədris mərkəzinin direktoru Eyvaz Kazımov çıxış edərək kitabın gənclərimizin həyatında mühüm əhəmiyyət kəsb etdiyini vurğulamış, müəllifə yeni yaradıcılıq uğurları arzulamış və tədbirin sona çatdığını bildirmişdir.

**O. MƏMMƏDOV.**



Qəbələnin qış mənzərəsi.
*Foto S. Umuyevindir.*

# Havadan benzin

İngiltərənin şimalında kiçik bir şirkət «hava sağımı» texnologiyasının yardımı ilə yalnız havadan və elektrikdən istifadə etməklə sintetik neft əldə etməyin yolunu tapdığını bildirib. Eksperetlər yeni üsulu iqlim dəyişikliyi və dünya enerji böhranı şəraitində oyun qaydalarını dəyişəcək ixtira kimi alqışlayıblar.

London Mühəndislik Konfransına təqdim olunmuş yeni texnologiya atmosferdən karbon qazının çıxarılmasına əsaslanır. Təmiz karbon qazı adi sudan əldə edilmiş hidrogenlə qarışdırılaraq metil spirti əldə edilir. Bu da öz növbəsində xüsusi reaktordan keçirilərək benzinə çevrilir. «Alınmış məhsul» benzin iyi verir, lakin ondan qat-qat təmizdir və müasir mühərrikləri işlətmək mümkündür.

Bu yolla ekoloji baxımdan təmiz aviasiya benzini də istehsal edilə bilər.

# Oxucuların nəzərinə!

## “Qəbələ” qəzetinə

## 2013 -cü il üçün abunə yazılışı davam edir.

**Qəzet ayda dörd dəfə çıxır.**

**İllik abunə qiyməti 30, yarımillik 15 manatdır.**

*Abunə „Kapitalbank“ın Qəbələ filialındakı hesabına köçürmə və redaksiyanın özündə kassaya nəqd ödəmə yolu ilə aparılır.*

*Hesab № 33080019444900218149. VÖEN 4400103601.*

Ünvan: Qəbələ şəhəri, Nizami küçəsi, 3.

Telefonlar: (024)20 5-19-14, 5-15-56, mob. (050) 328-11-42.

## ELAN

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən Nic kənd sakini Qəribov Elşad Qüdrət oğluna və ailə üzvlərinə 25 fevral 1999-cü il tarixdə 4 saylı qərarla verilmiş JN 168 №-li (kod 40600068) Torpaqda mülkiyyət hüququna dair Dövlət aktı **itdiyi üçün** etibarsız sayılır.

## ELAN

Qəbələ rayon Aqrar İslahat Komissiyası tərəfindən Yeni Dizaxlı kənd sakini Gülməmmədov Məcnun Səlim oğluna və ailə üzvlərinə 25 iyun 1998-ci il tarixdə 11 saylı qərarla Torpağın mülkiyyətə verilməsinə dair JN-228 B və JN-228 C saylı (kodları 40606018) Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamələr **itdiyi üçün** etibarsız sayılır.

## ELAN

Qəbələ Rayon Torpaq Şöbəsi tərəfindən Bum kənd sakini Fəxrəddin Əzməmmədovun adına 7 dekabr 2002-ci il tarixdə 12 №-li qərarla JN 0711 saylı Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə **itdiyi üçün** etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

Qəbələ Rayon İncəsənət Məktəbinin kollektivi iş yoldaşları **Nailə Məmmədovaya,** əzizi

**TEYMUR MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Məsul növbətçi
M. Ə. Rəhimov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Nizami küçəsi, 3.
Redaktor: (024)20 5-19-14.
Ümumi: 5 - 15 - 56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
“Kapitalbank”ın Qəbələ filialında hesab № 33080019444900218149
VÖEN: 4400103601
Lisenziya AV № 022611

Qəzet “Qəbələ” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində “E-Q” MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2255.